Bakı Araşdırmalar İnstitutu

# Cəmiyyət üçün açıqlanan büdcə sənədləri və ictimai əhəmiyyətli informasiyalar

## Cənubi Qafqaz ölkələri üzrə müqayisəli ANALİTİK İCMAL

BAKI – 2025

# MÜNDƏRICAT


Xülasə 3

1. Büdcə informasiyalarının əlçatanlığı
sahəsində beynəlxalq təşəbbüslər 5

2. Gürcüstan hökumətinin növbəti maliyyə ili və
ortamüddətli dövr üzrə cəmiyyətə açıqladığı büdcə informasiyaları 7

3. Ermənistan hökumətinin növbəti maliyyə ili və
ortamüddətli dövr üzrə cəmiyyətə açıqladığı büdcə informasiyaları 12

4. Azərbaycan hökumətinin növbəti maliyyə ili və
ortamüddətli dövr üzrə cəmiyyətə açıqladığı büdcə informasiyaları 18

5. Analizin əsas nəticələri 23

# Xülasə

Cəmiyyətin büdcə proseslərində fəal iştirakının olması, eləcə də hökumətdən hesabat tələb edə bilməsi onun büdcə barədə detallı məlumatlara çıxışı sayəsində mümkündür. Xüsusi istisnalarla, dövlət sirri bəhanəsi ilə və beynəlxalq təcrübədə qəbul edilmiş yanaşmalardan savayı heç bir arqumentlə vətəndaşın büdcə informasiyalarına çıxışı məhdudlaşdırıla bilməz. Kənd və şəhər fərqi olmadan ölkənin istənilən ucqar coğrafi məntəqəsində məskunlaşan insanlar yaşadıqları ərazidə təhsilə, səhiyyəyə, infrastruktura çəkilən xərclərin həcmi, ölkənin müdafiəsinə ayrılan vəsaitin məbləği, onun təhlükəsizliyini və asayişini qoruyan, müdafiəsini təmin edən polisin, təhlükəsizlik işçisinin, hərbçisinin, eləcə də sağlamlığına və övladının təhsilinə görə məsuliyyət daşıyan həkimin və müəllimin aldığı aylıq məvacibin məbləği barədə məlumatı rahat şəkildə, elə internet mənbələrindən əldə edə bilməlidir. Yalnız bu halda ictimai məlumatlar əlçatan hesab olunur.

Son illər Azərbaycan Respublikasının Maliyyə Nazirliyi öz saytı vasitəsilə açıqlanan büdcə informasiyalarının miqyasını xeyli genişləndirib. Amma məsələ təkcə informasiyaların kəmiyyətində yox, həm də keyfiyyətindədir. Bəzən böyük həcmli ixtiyari bir mətn ondan qat-qat kiçik mətndən daha az informasiya verə bilir. Bu baxımdan açıqlanan büdcə informasiyalarının və sənədlərin sayı ilə yanaşı, onların tərkibi, əhatə dairəsi, tamlığı, ictimai faydalılığı və ehtiyacı qarşılaya bilmək səviyyəsi son dərəcə əhəmiyyətə malik olur. Beynəlxalq Valyuta Fondu və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi beynəlxalq təşkilatların büdcə şəffaflığı və büdcə məlumatlarının ictimaiyyət üçün açıqlaması sahəsində verdikləri tövsiyələr məlumatlara əlçatanlığın qabaqcıl standartını müəyyənləşdirir.

Dövlət büdcəsi layihəsinin parlament müzakirəsi dövründə bütün büdcə informasiyalarını açıqlamalı olan Milli Məclis isə növbəti ilin dövlət büdcəsi barədə Qanun layihəsini dərc etməklə kifayətlənir. Büdcə məlumatlarının açıqlığının qeyd olunan meyarlara nə dərəcədə uyğun gəlib-gəlmədiyini qiymətləndirmək üçün bu sahədə qəbul edilmiş beynəlxalq standartlara baxmaq yetərli olmaya bilər. Faydalı yanaşmalardan biri ölkələrarası müqayisənin aparılmasıdır. Bu zaman xüsusilə eyni regiona aid, *yaxşı təcrübə* kimi götürülə biləcək ölkələrin bir-birilə müqayisə edilməsi obyektiv mənzərəni görməyə imkan verir .

Son 10-15 ildə Azərbaycanla yanaşı, Cənubi Qafqazın digər 2 ölkəsində - Gürcüstan və Ermənistanda da ictimaiyyətin büdcə məlumatlarına əlçatanlığının artırılması üçün xeyli işlər görülüb. Bunu nəzərə alaraq regionun 3 ölkə üzrə ictimaiyyətə açıqlanan büdcə informasiyalarının müqayisəli analizi aparılıb. Amma bir məqamı nəzərə almaq vacibdir: təqdim olunan analiz büdcə layihəsi təsdiqlənəndən sonra açıqlanan yox, məhz layihə müzakirəyə çıxarılana və parlamentdə müzakirə olunan dövrdə cəmiyyət üçün açıqlanan büdcə sənədlərini analiz edir. Çünki məhz bu dövrdə məlumat açıqlığı büdcə müzakirəsində ictimai iştirakçılığı təşviq etmək baxımından əhəmiyyətlidir.

Analiz aşağıdakı 4 bölmədən ibarətdir:

- **Büdcə informasiyalarının əlçatanlığı sahəsində beynəlxalq təşəbbüslər**

- **Gürcüstan hökumətinin növbəti maliyyə ili və ortamüddətli dövr üzrə cəmiyyətə açıqladığı büdcə informasiyaları**
- **Ermənistan hökumətinin növbəti maliyyə ili və ortamüddətli dövr üzrə cəmiyyətə açıqladığı büdcə informasiyaları**
- **Azərbaycan hökumətinin növbəti maliyyə ili və ortamüddətli dövr üzrə cəmiyyətə açıqladığı büdcə informasiyaları**

İcmalda Cənubi Qafqazın hər üç ölkəsinin 2026-cı il və növbəti 3 illə bağlı büdcə məlumatlarının açıqlanma səviyyəsi qiymətləndirilir. Analizdə hər 3 ölkə üzrə büdcə məlumatları hər ölkənin milli valyutasında təqdim edilib. Büdcə informasiyaları və büdcə sənədlərinin müqayisəsi ilə yanaşı, büdcə göstəriciləri üzrə də ölkələrarası fərqləri görmək üçün hesabatın işləndiyi dövrdə (noyabr 2025) Azərbaycan, Gürcüstan və Ermənistan milli valyutalarının ABŞ dollarına qarşı orta aylıq məzənnələri əsasında hesablama aparmaq mümkündür və maraqlanan hər kəs bunu asanlıqla edə bilər. Qeyd edilən dövr üzrə ölkələrin Mərkəzi Banklarının müəyyənləşdirdiyi məzənnə belə olub: 1 ABŞ dolları – 2,7 gürcü larisi, 1 ABŞ dolları – 382 erməni dramı, 1 ABŞ dolları – 1,7 Azərbaycan manatı.

# 1. Büdcə informasiyalarının əlçatanlığı sahəsində beynəlxalq təşəbbüslər

Hökumətlərin cəmiyyət üçün büdcə məlumatlarına əlçatanlığın təmin edilməsi sahəsində nəzərə ala biləcəyi bir neçə beynəlxalq təşəbbüs var. Şübhəsiz ki, bunların ilk sırasında Beynəlxalq Valyuta Fondunun Fiskal Şəffaflıq Məcəlləsi gəlir. Bu sənəd əsasında 2018-ci ildə hazırlanmış Maliyyə şəffaflığı üzrə Bələdçidə büdcə məlumatlarının ictimaiyyət üçün açıqlanmasına dair müəyyən yanaşma və tövsiyələr mövcuddur. Bələdçini hazırlayan ekspertlər məlumatların əlçatanlığı və şəffaflığı ilə bağlı 3 səviyyə təklif edirlər: əsas büdcə parametrlərinin (gəlirlər, xərclər, dövlət borcu, makroiqtisadi göstəricilər və s. barədə ümumiləşdirilmiş məlumatlar) açıqlığını nəzərdə tutan baza səviyyə, daha əhatəli və detallı informasiya açıqlığını təmin edən *yaxşı* və *mükəmməl* təcrübələr. BVF-nin yanaşması ümumiləşdirilsə, yaxşı təcrübələrə uyğun büdcə şəffaflığına nail olmaq üçün aşağıdakılar təmin edilməlidir:

- **Bütün dövlət sektorunu (mərkəzi və yerli büdcələrlə yanaşı dövlət müəssisələrini) əhatə edən büdcə məlumatları açıqlanmalıdır;**
- **Mühüm makroiqtisadi proqnozlar (iqtisadi artım, inflyasiya, neftin qiyməti və s.) 3-5 illik dövrü əhatə etməlidir;**
- **Xərclər üzrə təsnifat əlavə cədvəllər formasında funksional, iqtisadi, inzibati və proqram səviyyəsində açıqlanmalıdır;**
- **Əsas investisiya layihələrinin siyahısı və məbləğləri açıqlanmalıdır;**
- **Subsidiyalar və vergi güzəştləri barədə məlumatlar açıqlanmalıdır.**

Bütün bu məlumatların maşınla oxunabilən olması əsas şərtlərdən biridir. Eyni zamanda, tövsiyə edilir ki, büdcə informasiyaları ayrıca portal vasitəsilə açıqlansın.

Bir sıra beynəlxalq təşkilatların ortaq təşəbbüsü olan PEFA (Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı) metodologiyası da büdcə informasiyalarının əlçatanlığına dair müəyyən tələblər irəli sürür. Ortamüddətli (3-5 illik) büdcə və makroiqtisadi proqnozlar, büdcədənkənar əməliyyatlar, fiskal risklər və dövlət borcu, büdcə sifarişçiləri tərəfindən alınan resursların həcmi barədə məlumatların açıqlanması əsas tövsiyələr sırasındadır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının büdcə şəffaflığı ilə bağlı bələdçisi də ortamüddətli büdcə və makroiqtisadi proqnozlar və fiskal risklərlə yanaşı, yaxşı təcrübələri əsas götürərək ictimaiyyət üçün bəzi detallı məlumatların açıqlanmasını tövsiyə edir. Bura xərclərin proqramlar və layihələr səviyyəsində açıqlanmalı, funksional bölmələr üzrə xərclərin iqtisadi təsnifatı açıq olmalı, əsas investisiya layihələrinin, dövlət borclarının və verilən zəmanətlərin siyahısı təqdim edilməlidir. Büdcə məlumatlarının maşınla oxunabilən olması və ayrıca büdcə portalı vasitəsilə yayılması İƏİT-in də tövsiyələri sırasında yer alır.

Nəhayət, bu sahədə Beynəlxalq Büdcə Layihəsi (The International Budget Project) (bundan sonra, qısaca BBL kimi yazılacaq) təşkilatının da yanaşmaları mühüm əhəmiyyətə malikdir. BBL-in metodologiyasında büdcə məlumatlarının açıqlığı ilə bağlı dəqiq müddəalar var. Sənədə əsasən, hökumətlər *Büdcə öncəsi bəyanat*da növbəti maliyyə ili və ortamüddətli dövr üzrə büdcə və makroiqtisadi göstəriciləri, həmçinin proqnozları açıqlamalıdır. *Hökumətin büdcə təklifləri* sənədində isə funksional xərc bölmələri iqtisadi və proqram təsnifatı səviyyəsində açıqlanmalı, investisiya layihələrinin adları, hər bir layihə üzrə məbləğ və icraçı qurum barədə məlumat təqdim edilməli, dövlət borcu və fiskal risklər ictimaiyyət üçün açıq məlumatlar olmalıdır.

Açıq hökumət təşəbbüsü çərçivəsində də büdcə məlumatlarının əlçatanlığı ilə bağlı yanaşma və tövsiyələr mövcuddur. Bu təşəbbüslər daha çox Beynəlxalq Valyuta Fondu, BBL və İƏİT-in tövsiyələrinin ümumiləşdirilməsi əsasında hazırlanıb.

# 2. Gürcüstan hökumətinin növbəti maliyyə ili və ortamüddətli dövr üzrə cəmiyyətə açıqladığı büdcə informasiyaları

Gürcüstan Parlamentinin Reqlamentinin 135-ci maddəsinə uyğun olaraq, hökumət oktyabr ayının 1-dən gec olmayaraq dövlət büdcəsi haqqında qanun layihəsini, ona əlavə edilmiş qanunvericilikdə nəzərdə tutulan materialları (o cümlədən cari ilin dövlət büdcəsinin icrası haqqında hesabatı), həmçinin ölkənin əsas məlumat və inkişaf istiqamətləri sənədini Parlamentə təqdim etməlidir. Adıçəkilən büdcə sənədləri parlamentə daxil olan kimi onun internet səhifəsində dərhal yerləşdirilir.

Gürcüstan hökuməti cəmiyyət üçün büdcə layihəsini və büdcə zərfinə daxil olan sənədləri ölkə Parlamentinin rəsmi internet resursu vasitəsilə ictimailəşdirir. Açıqlanan sənədlər cəmiyyətə dövlət büdcəsilə bağlı kifayət qədər geniş və detallı məlumatlar əldə etməyə imkan verir. Büdcə zərfi çoxsaylı sənədlərdən ibarət olsa da, cəmiyyətin ən zəruri büdcə informasiyalarına çıxışını təmin edən əsas sənədlər aşağıdakılardır:

**1) Ölkə üzrə əsas məlumatlar və inkişaf istiqamətləri adlı əsas sənəd;**
**2) Proqram büdcəsi ilə bağlı Əlavə;**
**3) Mərkəzi Büdcə ilə bağlı Əlavə;**
**4) Büdcə investisiyaları ilə bağlı Əlavə.**

***Ölkə üzrə əsas məlumatlar və inkişaf istiqamətləri*** təxminən 200 səhifə həcmində əhatəli bir sənəddir və qarşıdakı 4 illik dövrü (ən son sənəd 2026-2029-cu illəri) əhatə edir. Sənədin ilk hissəsi *Sülhün, ləyaqətin və rifahın olduğu Avropaya doğru* adlı hökumət proqramına həsr edilib.

Proqram dövlət siyasətinin aşağıdakı 4 əsas istiqamətini əhatə edir:

1. *Demokratik inkişaf* - dövlət institutlarının gücləndirilməsi, insan hüquqları və onların qorunması üçün institusional mexanizmlərin yaradılması;
2. *İqtisadi inkişaf* - makroiqtisadi siyasət və sürətli iqtisadi inkişaf, iqtisadi islahatlar, məşğulluq, sahibkarlığın inkişafı, innovasiya və texnologiyanın inkişafı, xarici ticarət əlaqələri, turizm, enerji sektoru, nəqliyyat və logistika, internetin inkişafı və rəqəmsal transformasiya, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı, infrastruktur, o cümlədən yol infrastrukturu və su təchizatı, ətraf mühitin mühafizəsi və s.;
3. *Sosial siyasət və insan kapitalının inkişafı* - səhiyyə, sosial müdafiə, elm, təhsil, gənclər siyasəti, mədəniyyət, idman;
4. *Xarici siyasət və müdafiə* - xarici siyasət, müdafiə.

Sənədin 2-ci hissəsi əsas makroiqtisadi və büdcə parametrlərini əks etdirir. Əsas makroiqtisadi göstəricilərin proqnozuna görə, qarşıdakı 4 ildə ÜDM-nin real tempi 5%-dən aşağı olmayacaq,

adambaşına ÜDM 11 min dollardan 14 min dollara, nominal ÜDM məbləği 110 milyard laridən (təxminən 40,7 milyard dollar) 140,11 milyard lariyə (51,9 milyard dollara) çatacaq, inflyasiya 3% ətrafında sabitləşəcək. İcmal büdcə gəlirlərinin 2025-ci ildəki 27,71 milyard laridən (10,3 milyard dollar) 2029-cu ildə 37,51 milyard lariyə, öz növbəsində vergi gəlirlərinin 25,31 milyard laridən 35,11 milyard lariyədək artacağı, proqnozlaşdırılan büdcə gəlirlərinin ÜDM-ə nisbətinin 26,6%-dən 28,5%-ə çatıdırılması hədəflənir. 2026-2029-cu illərdə icmal büdcə xərclərinin 24,91 milyard laridən 31,71 milyard lariyə çatdırılması nəzərdə tutulub[1].

Sənədin 3-cü bölməsində dövlət büdcəsindən vəsait alan qurumların maliyyə və insan resurslarının idarə olunmasını əhatə edir. Bu hissədə ictimaiyyət üçün aşağıdakı büdcə informasiyaları açıqlanır:

1) **Mərkəzi hakimiyyət strukturlarının saxlanması xərcləri.** Məsələn, sənədə əsasən, 2026-cı ildə Gürcüstan parlamentinə 91,5 milyon lari, prezident administrasiyasında 10,5 milyon lari, hökumət administrasiyasında 30 milyon lari, Mərkəzi Seçki Komissiyasına 43,7 milyon lari, Ali Məhkəməyə 22 milyon lari, Dövlət Təhlükəsizlik Xidmətinə 265 milyon lari vəsait ayrılacaq.

2) **Hər bir qurum üzrə maksimum ştat vahidlərinin sayı açıqlanır.** Məsələn, parlament üzrə 708, prezident administrasiyası üzrə 69, hökumət administrasiyası üzrə 227, Mərkəzi Seçki Komissiyası üzrə 506, Ali Məhkəmə üzrə 225, Dövlət Təhlükəsizlik Xidməti üzrə 3850 nəfər nəzərdə tutulub.

3) **Ayrı-ayrı regionlar üzrə yerli hakimiyyət strukturlarının saxlanması xərcləri.** Məsələn, Lançxuti, Ozurgeti və Çokhatauri bələdiyyələri üzrə prokurorluq strukturlarının saxlanmasına 1,3 milyon lari ayrılması nəzərdə tutulub.

**Mərkəzi Büdcə ilə bağlı Əlavə -** 2026-cı ilin Mərkəzi Büdcəsi barədə məlumat adlanan 195 səhifəlik sənəddə növbəti il üzrə mərkəzi büdcənin gəlir və xərcləri barədə ətraflı məlumatlar təqdim edilir. İctimaiyyət üçün açıq olan bu sənəd vasitəsilə maraqlanan hər kəs aşağıdakı büdcə məlumatlarını əldə edə bilər:

1) **Dövlət büdcəsinin gəlirlərinin ümumi daxilolmalarının, o cümlədən vergi gəlirlərinin məbləği barədə məlumat.** Bu hissədə həmçinin qanunvericiliyin imkan verdiyi bütün mənbələr üzrə büdcədənkənar gəlirlərin həcmi barədə də informasiya açıqlanır. Məsələn, 2026-cı il üzrə 26,6 milyard lari mərkəzi büdcə gəlirlərindən təxminən 2,5 milyard larinin büdcədənkənar mənbələrdən daxil olacağı proqnozlaşdırılır. Ümumi büdcə gəlirlərinin 23 milyard larisi və ya 86,5%-i vergi daxilolmalarından formalaşacaq.

2) **Büdcədən maliyyələşən hər bir təşkilat üzrə xərclərin ümumi məbləği və paraqraflar üzrə bölgüsü.** 2026-cı ildə ümumilikdə 67 təşkilat üzrə xərclərin bölgüsü aparılıb. Məsələn, Dövlət Təhlükəsizlik Xidmətinin saxlanması üçün 2026-cı il üçün 272 *milyon* nəzərdə tutulub. Bu vəsait 4 müxtəlif paraqraf üzrə bölüşdürülüb: ***(i)*** *dövlət təhlükəsizliyinin təmin olunması tədbirlərinə 186,2 milyon lari;* ***(ii)*** *Dövlət Təhülkəsizlik Xidmətinin operativ-texniki fəaliyyətinin təmin*

[1] Gürcüstan Mərkəzi Bankının məlumatına görə, hazırda Gürcüstan milli valyutasının ABŞ dollarına məzənnəsi 1 dollar=2,7 lari səviyyəsindədir: https://nbg.gov.ge/en

*edilməsinə 57,5 milyon lari;* ***(iii)*** *Dövlət Təhlükəsizlik Xidmətində kadrların hazırlığı və yenidən hazırlığı tədbirlərinə 2,9 milyon lari;* ***(iv)*** *kəşfiyyat fəaliyyətlərinin təmin edilməsinə 25 milyon lari.*

**3) Hər bir təşkilat və paraqraflar üzrə xərclərin iqtisadi təsnifatı**. Gürcüstan hökuməti hətta ölkənin müdafiə xərclərinin, hüquq-mühafizə və təhlükəsizlik orqanlarının fəaliyyəti üçün nəzərdə tutulmuş vəsaitlərin iqtisadi strukturunu tamamilə açıqlayır. Məsələn, növbəti il Dövlət Təhlükəsizlik Xidməti üçün nəzərdə tutulmuş 272 milyon laridən 152,6 milyon lari əmək ödənişi, 89,9 milyon lari mal və xidmət alışı xərclərinə, Respublika Prokurorluğu üçün nəzərdə tutulan 95,5 milyon lari məbləğdən 66,8 milyon lari əmək haqqı, 18,6 milyon lari mal və xidmət alışı, 6,8 milyon lari qeyri-maddi aktivlərin alınması xərclərinə, müdafiə xərclərinə ayrılan 1,8 milyard lari vəsaitin 929 milyon lari əmək ödənişi, 381 milyon lari mal və xidmət alışı xərclərinə, Daxili İşlər Nazirliyi üçün nəzərdə tutulan 1,9 milyard lari vəsaitin 1,3 milyard lari əmək haqqı, 397,3 milyon lari mal və xidmət alışı xərclərinə sərf ediləcək.

**4) Publik və qeyri-kommersiya hüquqi şəxslərin qanunvericiliklə əldə edəcəyi gəlirlər və həmin gəlirlər çərçivəsində xərcləmələrin məbləği.** 2026-cı ildə büdcə təşkilatlarının büdcədənkənar gəlirləri 2,5 milyard lari (926 milyon dollara yaxın) səviyyəsində proqnozlaşdırılır. Bu gəlirlərin təxminən üçdə biri və ya 849 milyon larisi əmək haqqı, 930 milyon larisi mal və xidmətlərin alınmasına sərf ediləcək. Publik hüquqi şəxslərə İctimai Audit İnstitutu, Ali Ədliyyə Məktəbi, Gürcüstan Operativ-Texniki Agentlik, Maliyyə Nazirliyinin Akademiyası, Maliyyə-Analitik Xidmət, mədəniyyət və incəsənət obyektləri, müxtəlif universitetlər və s. kimi qurumlar aid edilir. Məsələn, Milli Turizm Administrasiyasının gəlirləri 2 milyon lari, Dövlət Əmlakı Milli Agentliyinin gəlirləri 29,6 milyon lari, Müdafiə Nazirliyinin Hərbi Hospitalının gəlirləri 20,5 milyon lari səviyyəsində proqnozlaşdırılır. Hər bir qurumun bu gəlirləri hansı istiqamətə xərcləməsi barədə də detallı məlumat təqdim edilir.

**Proqram büdcəsi ilə bağlı Əlavə -** 2026-cı ilin dövlət büdcəsi ilə müəyyən edilmiş proqramların gözlənilən nəticələri və indikatorları barədə məlumat adlanan 445 səhifəlik sənəddə 2026-2029-cu illər üzrə müxtəlif prioritet sahələri əhatə edən proqramlar və alt-proqramlar barədə ətraflı məlumatlar əksini tapıb. Bu istiqamətlər aşağıdakılardır:
Sənəddə aşağıdakı

- *Əlçatan, keyfiyyətli səhiyyə və sosial təminat*
- *Müdafiə, ictimai qayda və təhlükəsizlik*
- *Regional inkişaf, infrastruktur və turizm*
- *Təhsil, elm və peşəkar hazırlıq*
- *Makroiqtisadi sabitlik və investisiya mühitinin yaxşılaşdırılması*
- *İnstitusional inkişaf və dövlət maraqlarının hüquqi dəstəyi*
- *Məcburi köçkünlərin və miqrantların dövlət dəstəyi və reinteqrasiyanın təşviqi*
- *Mədəniyyət, din, gənclərin təşviqi və idman*
- *Beynəlxalq əlaqələr və Avroatlantik məkanla inteqrasiya*

- *Kənd təsərrüfatı*
- *Ətraf mühitin qorunması və təbii resursların idarə olunması*

*Əlçatan, keyfiyyətli səhiyyə və sosial təminat* prioritet istiqamət üzrə səhiyyə və sosial təminat sektorunda həyata keçirilən proqramlar, onların icraçıları və maliyyələşməsinə ayrılacaq vəsaitlər, proqramların məqsədi və vəzifələri, gözlənilən nəticələri və onları ölçmək üçün indikatorlar barədə məlumatlar verilib. *Əlçatan, keyfiyyətli səhiyyə və sosial təminat* istiqaməti üzrə nəzərdə tutulan proqramların və fəaliyyətlərin maliyyələşdirilməsinə ümumilikdə 2026-cı ildə 9,4 milyard lari ayrılacaq.

2026-cı ildə bu istiqamətə aid xərclər müxtəlif proqramlar üzrə bölüşdürülür və əsas proqramlara ayrılan xərclər aşağıdakı kimidir:

***(i) Əhalinin sosial müdafiəsi Proqramına 6,992 milyard lari (2,6 milyard dollar)***
***(ii) Əhalinin sağlamlığının qorunması Proqramına 2,036 milyard lari (754 milyon dollar);***
***(iii) Əhalinin məşğulluğu sisteminin islahat Proqramına 113,3 milyon lari;***
***iv) Məcburi köçkünlərin sosial müdafiəsi Proqramına 143,8 milyon lari***

Sənəddə hər bir proqramın geniş təsviri verilir və həmin mətndə proqramın məqsədləri, konkret layihələrin adları sadalanır. Məsələn, *Əhalinin sosial müdafiəsi Proqramı* çərçivəsində yüksək dağlıq yaşayış məntəqəsində daimi yaşayan təqaüdçülərə aldıqları vəsaitin 20 faizi məbləğində əlavənin verilməsi, dağlıq yaşayış məntəqələrində yaşayan abonentlər istehlak edilən aylıq elektrik enerjisi haqqının 50 faizi (istehlak edilən 100 kVt/saat elektrik enerjisinin dəyərindən çox olmamaq şərti ilə) məbləğində kompensasiyanın ödənilməsi kimi müxtəlif layihələr barədə ictimaiyyət həmin sənəd vasitəsilə detallı məlumat əldə edə bilir.

Proqramların nəticələrini qiymətləndirmək üçün nəticə indikatorları da sənədə daxil edilir. Məsələn, əhalinin sosial müdafiəsi proqramı üçün müəyyən edilən bəzi nəticə indikatorları bunlardır: sosial xidmət alan şəxslərin sayının baza göstərici ilə (18,5 min nəfər) müqayisədə 5% artımına nail olmaq, sosial müdafiə tədbirləri ilə əhatə olunan əhalinin xüsusi çəkisinin baza göstərici (43%) ilə müqayisədə 7% artımı və s.

Hər bir proqramın alt-proqramı mövcuddur. Məsələn, *Əhalinin sosial müdafiəsi Proqram*ına 5 alt-proqram daxildir. Bunlar 1) *Əhalinin pensiya təminatı*, 2) *Əhalinin hədəf qrupuna sosial yardım*, 3) *Sosial reabilitasiya və uşaqlara qayğı*, 4) *Yüksək dağlıq yaşayış məntəqələrində sosial güzəştlər*, 5) *Dövlət qayğısı, insan alveri qurbanlarının qorunması və dəstəklənməsinin təmin edilməsi* alt-proqramlarıdır.

**Büdcə investisiyaları ilə bağlı Əlavə -** Gürcüstanın 2026-cı il dövlət büdcəsi ilə nəzərdə tutulan kapital layihələr haqqında məlumat adlanan 75 səhifəlik sənəddə 2024-2029-cu illər üzrə icra olunması nəzərdə tutulan 90-a yaxın layihənin siyahısı və onları maliyyələşdirən donorların adları verilib. Layihələrin adları sadalanan cədvəldə həm icra olunmuş (2024), həm icrası davam edən (2025), həm də növbəti 4 ildə icra olunacaq layihələrə illər üzrə ayrılacaq vəsaitin həcmi və həmin layihənin ümumi məbləği daxil edilib. Məsələn, Kutaisi hava limanının uçuş-enmə zolağının tikintisi

üçün ümumilikdə 239,5 milyon lari kapital büdcəsi təsdiqlənib. Bundan 49,5 milyon lari 2024-cü ildə, 70 milyon lari 2025-ci ildə, 2026-2027-ci illərdə də hər il üzrə 60 milyon lari (ümumilikdə 2 il üzrə 120 milyon lari) ayrılmaqla layihə tamamlanacaq. Hökumətin ən iri layihələrindən biri olan Anaklia Limanının tikinti büdcəsi 581 milyon lari (210 milyon dollara yaxın) təsdiqlənib. Artıq bunun 220 mln. larisi 2024-2025-ci illərdə xərclənib. 2026-cı ildə 150 milyon lari ayrılması proqnozlaşdırılır. Yerdə qalan 211,3 milyon lari 2027-2028-ci illərdə ayrılmaqla layihə tamamlanacaq. Bütün bölgələrdə yaşayan insanlar son 2 ildə öz regionlarında hansı su-kanalizasiya, təhsil, səhiyyə, mədəniyyət obyektinin çəkilməsi və yol infrastrukturunun qurulması layihəsinin həyata keçirildiyi, onların reallaşdırılmasına nə qədər vəsait xərcləndiyi barədə bu sənəd vasitəsilə ətraflı məlumatlar ala bilirlər. Eyni qaydada, qarşıdakı 3 ildə də hər bir layihə və onun büdcəsi ictimaiyyət üçün açıqlanır.

Sənədə eyni zamanda hər bir layihə haqqında əlavə məlumat daxil edilib. Həmin məlumatlara layihənin proqram kodu, layihənin həyata keçirildiyi prioritet, proqramın kodu və adı, proqram təsnifatına əsasən, proqramın icraçısı, layihənin təsviri və məqsədi, layihənin gözlənilən aralıq nəticəsi, layihə barədə ətraflı məlumat və layihənin gözlənilən yekun nəticəsi kimi son dərəcə detallı informasiyalar daxildir. Məsələn, *İnnovasiya və texnologiyaların inkişafı* proqramı çərçivəsində 2026-cı ildə ilk dəfə olaraq, 10 milyon lari büdcə investisiyaları çərçivəsində süni intellektin inkişafına vəsait ayrılacaq. 2027-2029-cu illərdə bu proqramın icrasına əlavə olaraq, 39,7 milyon lari ayrılması büdcə investisiya proqramına daxil edilib. Layihənin icraçısı Gürcüstan İnnovasiya və Texnologiya Agentliyidir. Layihənin məqsədi belə təqdim edilir: ölkənin davamlı inkişafı məqsədilə bilik əsaslı şirkətlərin və startapların inkişafını təşviq etmək, faydalananların yaradıcı bacarıqlarını, dizayn, tədqiqat, tikinti və prototipləmə bacarıqlarını inkişaf etdirəcək təhsil-sənaye və informasiya mühiti yaratmaq. Bu layihə çərçivəsində ən müasir infrastrukturla təchiz olunmuş və müvafiq təcrübəyə malik kadrların işləyəcəyi *Süni İntellekt Tədqiqat və Səriştə Mərkəzləri*nin açılması planlaşdırılır. Layihənin reallaşdırılmasından aralıq və son nəticələr belə açıqlanır: ölkədə süni intellekt əsaslı innovasiyaların inkişafı, özəl və dövlət sektorlarının məhsuldarlığının artırılması, yeni yüksək maaşlı və ixtisaslı kadrların cəlb edilməsi və onların peşəkar inkişafına töhfə verilməsi, beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi, bazarın ehtiyaclarına cavab verən, elm və texnologiyaya əsaslanan kommersiya potensialına malik məhsul, tədqiqat yaxud xidmətlərin hazırlanması və tətbiqi, bunun nəticəsində yeni tip texnologiya yönümlü xidmətlərin yaradılması, ölkədə innovasiya və texnologiya ekosisteminin güclənməsi.

# 3. Ermənistan hökumətinin növbəti maliyyə ili və ortamüddətli dövr üzrə cəmiyyətə açıqladığı büdcə informasiyaları

Növbəti il üçün büdcə layihəsinin sənədlər dəsti oktyabr ayının 20-dək artıq Maliyyə Nazirliyinin saytında yerləşdirilir və ictimaiyyət qarşıdakı 3 il üzrə ölkənin əsas maliyyə sənədi ilə bağlı detallı məlumat əldə etmək imkanı qazanır.

Nazirliyin təqdim etdiyi sənədlər 2 hissəyə ayrılır:

(i) **Növbəti il üçün büdcə qanununun layihəsi və ona əlavələr;**

(ii) **Hökumətin büdcə mesajı və qanun layihəsinə izahatlar, izahata əlavə olunan analitik cədvəllər.**

Büdcə layihəsində növbəti il üzrə büdcənin əsas parametrləri - gəlirlər, xərclər, büdcə kəsirinin məbləği və onun maliyyələşdirilməsi mənbələri, inflyasiyanın hədəflənən səviyyəsi və s. kimi göstəricilər əks olunur. Məsələn, açıqlanan qanun layihəsinə görə, 2026-cı ildə dövlət büdcəsinin gəlirləri 3262 milyard dram (8,5 milyard dollar), xərcləri 3799,4 milyard dram (9,9 milyard dollar), büdcə kəsiri 537,5 milyard dram (1,4 milyard dollar) müəyyən edilib. Kəsirin maliyyələşdirilməsi mənbələri belə müəyyən edilib: 266,2 milyard dram daxili, 271,3 milyard dram xarici mənbələr. İllik inflyasiya hədəfi 3 faiz (±1.0) səviyyəsində göstərilib.

Bir vacib məqamı qeyd etmək lazımdır: Azərbaycandan fərqli olaraq, Ermənistanda fərdi yığım hesablarına getməyən, yalnız cari pensiya xərclərini maliyyələşdirmək üçün toplanan sosial sığorta haqları dövlət büdcəsində toplanır. Odur ki, dövlət büdcəsinin gəlirlərinə məcburi sosial sığorta haqları da daxildir.

Büdcənin əsas detalları, ictimaiyyət üçün maraqlı olan bütün məlumatlar təqdim olunan əlavələrdə əks etdirilir. Əlavələrdə ictimaiyyət üçün açıqlanan məlumatlara aşağıdakılar daxildir:

**1) Dövlət qurumlarının həyata keçirdiyi proqramlar və büdcə xərclərinin həmin proqramlar üzrə bölgüsü**. 2026-cı ilin büdcə layihəsində hökumətin xərcləri 172 müxtəlif proqram üzrə bölüşdürülüb. Belə proqramlara ahıllara və əlillərə dəstək, dövlət sektorunun modernləşdirilməsi, ətraf mühitə təsirlərin qiymətləndirilməsi, ictimai səhiyyənin dəstəklənməsi, iqtisadiyyatda rəqabətin qorunması, peşə təhsilinin inkişafı, regionların mədəni inkişaf proqramı, yoluxucu xəstəliklərin qarşısının alınması, təcili tibbi yardım xidmətlərinin təşkili, kənd infrastrukturunun bərpası və inkişafı, aqrar sektorun dəstəklənməsi və s. kimi proqramlar daxildir.

**2) Növbəti büdcə ilində xarici dövlətlərin və beynəlxalq təşkilatların qrant dəstəyi ilə həyata keçirilən proqram və tədbirlər.** 2026-cı il üçün bu mənbə hesabına 19,6 milyard dram və ya 51,1 milyon dollar dəyərində 37 layihə həyata keçiriləcək. Qlobal Fondun dəstəklədiyi *Vərəm və HİV/AİDS*

*proqramlarının gücləndirilməsi*, *HİV/AİDS ilə Mübarizə üzrə Milli Proqrama Dəstək,* Fransa İnkişaf Agentliyinin dəstəyi ilə Ararat və Armavir bölgələrində suvarma əkinçiliyinin inkişafı üçün qrant proqramları və s. bura daxildir.

**3) Növbəti büdcə ilində xarici dövlətlərin və beynəlxalq təşkilatların kredit dəstəyi ilə həyata keçirilən proqram və tədbirlər.** 2026-cı ildə xarici kreditlər vasitəsilə həyata keçiriləcək 50-dən artıq proqrama 85,9 milyard dram və ya 224 milyon dollar xərclənəcək. Dünya Bankının dəstəklədiyi *Dövlət Sektorunun Modernləşdirilməsi Proqramı*, *Suvarma sisteminin bərpası*, Alman İnkişaf Kredit Bankının dəstəklədiyi Selav-Mastara su anbarının tikintisi kimi proqramlar bura daxildir.

**4) Mərkəzi hökumət tərəfindən yerli büdcələrə verilən subsidiyaların icmalar üzrə bölgüsü.** Ümumilikdə 2026-cı ildə kiçik (əhalisi 3500 nəfərdən az olan) və sərhəd icmalarına 107,8 milyard dram və ya 282 milyon dollar subsidiya ayrılması nəzərdə tutulur və 65 icmanın bu dəstəyi almaq hüququ var.

**5) Yerli büdcələrə verilən subsidiyaların proqram və tədbirlər üzrə bölgüsü.** Bu tədbirlərə icmalarda yol hərəkətinin tənzimlənməsi üzrə dövlət tərəfindən icma rəhbərinə həvalə edilmiş səlahiyyətlərin icrası, müəyyən sosial qrupların 5 yaşınadək uşaqları üçün məktəbəqədər təhsilin təmin edilməsi kimi müxtəlif fəaliyyətlər daxildir.

**6) 2026-cı il dövlət büdcəsi kəsirinin maliyyələşdirilmə mənbələri.** Bu sənəddə həm daxili, həm də xarici mənbələr üzrə çox detallı məlumatlar təqdim edilir. Məsələn, daxili mənbə üzrə qiymətli kağız buraxılışının həcmi, xarici mənbələr üzrə cəlb olunacaq vəsaitin konkret proqram və layihələr üzrə həcmi siyahı şəklində sənəddə əks etdirilir.

**7) Növbəti büdcə ili üçün xüsusilə prioritet proqram və layihələr.** 2026-cı ildə 62 layihə üzrə 195,2 milyard dram (510 milyon dollar) ayrılması nəzərdə tutulur. Hər bir layihə üzrə vəsaitlərin bölgüsü də təqdim edilir. Bu siyahıya penitensiar müəssisələrinin bina şəraitinin yaxşılaşdırılması, meşələrin bərpası və meşəsalma işləri, futbol infrastrukturunun inkişafı üçün stadionların və idman məktəblərinin tikintisi, evsizlərə sığınacaq verilməsi, sosial cəhətdən həssas şəxslər üçün qidalanmanın təşkili, kirayə mənzillərdə yaşayan sosial cəhətdən həssas ailələr üçün kirayə haqqının qismən ödənilməsi, ahıllar və əlillər üçün gecə-gündüz qayğı xidmətlərinin təşkili, ahıllar və əlillər üçün evdə qulluq xidmətlərinin təşkili, uşaqlar üçün gecə-gündüz qayğı xidmətləri, ağır həyat şərtləri olan uşaqlar üçün ailə dəstək mərkəzlərində xidmətlərin göstərilməsi və s. daxildir.

**8) Büdcə investisiya layihələrinin siyahısı və hər bir layihə üzrə məbləğlər.** 2026-cı ildə büdcə investisiya proqramının icrasına 593 milyard dram (1,55 milyard dollar) ayrılması nəzərdə tutulur. Bu məbləğ ümumilikdə 600-ə yaxın investisiya layihəsini əhatə edir. Əlavədə hər bir investisiya layihəsinin adı, həyata keçirildiyi ərazi və ayrılan məbləğ əks etdirilib. Məsələn, növbəti il Lori regionunda 9 məktəbin (Lorut, Noraşen, Alaverdi və s. təhsil kompleksi) tikintisi üçün ümumilikdə 2,7 milyard dram (7,1 milyon dollar) olmaqla, hər bir məktəb üçün 300 milyon dram (788 min dollar) ayrılıb.

**9) 2026-cı il dövlət büdcəsi hesabına dövlətlərarası və respublika əhəmiyyətli avtomobil yollarının saxlanılması xərcləri.** Layihəyə ümumilikdə 6,9 milyard dram (18,1 milyon dollar) ayrılacaq 10 avtomobil yolunun adı daxil edilib.

**10) Mərkəzi Bankın inzibati xərclərinin smetası.** 2026-cı ildə bu məqsədə 12,1 milyard dram (31,5 milyon dollar) ayrılıb. Xərclərin 98 faizi heyətin maaşları, ezamiyyə haqları və peşəkarlıqlarının artırılması üçün təlimlərin təşkili ilə bağlıdır. Bu semataya əsaslı xərclər və tikililərə xidmətlə bağlı xərclər daxil deyil.

**11) Büdcə proqramlarının hər biri üzrə həyata keçiriləcək konkret tədbirlərin adı, məqsədi və bu tədbir nəticəsində əldə olunması hədəflənən yekun nəticələrin təsviri.** Bu əlavədə 172 proqram üzrə yüzlərlə tədbir və onların hər birinin realaşdırılması üçün ayrılan vəsaitin məbləği əks etdirilir. Məsələn, demoqrafik vəziyyətin yaxşılaşdırılması proqramına 84,1 milyard dram (220 milyon dollar) ayrılması nəzərdə tutulub. Əlavədə bu proqram çərçivəsində həyata keçiriləcək çoxsaylı tədbirlər və onların hər biri üzrə ayrılacaq vəsait əks etdirilib. Nümunə olaraq bu tədbirlərdən bəziləri bunlardır: 2 yaşadək uşaqlar üçün müavinətin verilməsi (büdcə xərci 28,9 milyard dram), 3 və daha çox uşağı olan ailələrə 2-ci uşaqdan sonra doğulan hər uşaq üçün ayda 50 min dram (130 dollar) verilməsi (büdcə xərci 32,9 milyard dram) təmin ediləcək.

Hökumətin büdcə mesajı və büdcə layihəsinə dair izahatı daha böyük həcmli sənəddir (200 səhifədən artıq) və ictimaiyyətə təqdim olunan büdcə layihəsinin detalları ilə bağlı geniş məlumatlar təqdim edir. Sənədin strukturuna qarşıdakı dövr üzrə makroiqtisadi inkişaf və proqnozlar (iqtisadi artım və ÜDM, əmək bazarı, valyuta məzənnəsi, ödəmələr balansı, iqtisadi artımla bağlı risklər və s.), hökumətin maliyyə siyasətinin əsas istiqamətləri, dövlət büdcəsinin əsas parametrləri (xərclər və əsas xərc prioritetləri, büdcə gəlirləri və vergilər, xərclərin sektorial və proqramlar üzrə bölgüsü, büdcə kəsiri və maliyyələşdirmə mənbələri, büdcə risklərinin təhlili), dövlət borcu kimi bölmələr və altbölmələr daxildir.

Büdcə layihəsinə dair izahatın əlavələri vətəndaşlara növbəti maliyyə ili, eləcə də qarşıdakı 3 il üzrə aşağıdakı büdcə infrormasiyalarını əldə etməyə imkan yaradır:

**1) Dövlət orqanlarının xidmətində olan nəqliyyat vasitələrinin sayı**. 2026-cı ildə 61 dövlət qurumunda 639 ədəd xidmət avtomobil olacağı nəzərdə tutulur ki, bu 2025-ci illə müqayisədə 49 ədəd azdır. Ən çox xidməti maşın Dövlət Gəlirlər Komitəsi (126 ədəd), İstintaq Komitəsi (84 ədəd) kimi qurumların, ən az isə Prezident Aparatının (6 ədəd) sərəncamında olacaq. Baş Nazirin aparatı üçün 19, Parlament üçün isə 26 ədəd xidməti nəqliyyat vasitəsi nəzərdə tutulub;

**2) 2024-2026-ci illər üzrə xərclərin proqramlar və tədbirlər üzrə müqayisəli bölgüsü.** Bu Əlavə kifayət qədər informasiya tutumu olan sənəddir, hər bir büdcə təşkilatı üçün nəzərdə tutulan xərclərin konkret proqramlar və tədbirlər üzrə bölgüsünü təqdim edir. Məsələn, Parlamentin fəaliyyətinin təmin edilməsi üçün 2026-cı ilin dövlət büdcəsindən ayrılan 7 milyard dram (18,3 milyon dollar) vəsaitin bölgüsü bu cür aparılıb: Parlamentin fəaliyyətinin, analitik və nümayəndəlik xidmətlərinin təmin edilməsi, Parlamentin dövlət qulluqçusu olan heyəti üçün təlimlərin təşkili, Parlamentin idarəetmədə rolunun artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi, beynəlxalq

parlament təşkilatlarına üzvlük haqları, partiyalara və partiya birliklərinə dəstək, Parlamentin texniki təchizatının təkmilləşdirilməsi, Parlamentin bina şəraitinin yaxşılaşdırılması və s. Qeyd olunan hər bir tədbir üzrə xərclər də ayrıca göstərilir. *İlkin səhiyyə xidməti* üçün ayrılan 30,6 milyard dram vəsaitin bölgüsü proqram, alt-proqram və ya tədbirlər üzrə bu cür bölüşdürülür: davamlı monitorinq tələb edən fərdi xəstəliklərin diaqnozu və müalicəsi məqsədilə dar ixtisaslaşmış mərkəzlərdə laboratoriya və instrumental diaqnostik testlər, kolorektal xərçəng müayinəsi, səhiyyə proqramının icrası ofisinin texniki xidmət xərcləri, 10 tibb müəssisəsinə müasir tibbi avadanlıq və mebel təchiz edilməsi, səhiyyə təşkilatlarının tikintisi və yenidən qurulması, patoloji-anatomik müayinələr, dərman təchizatı, mamalıq tibbi yardım xidmətləri, uşaqlar üçün tibbi yardım xidmətləri, əqli və zehni (davranış), eşitmə və digər inkişaf pozğunluqları olan uşaqlar üçün qiymətləndirmə və reabilitasiya müalicəsi xidmətləri, sonsuz cütlüklər üçün köməkçi reproduktiv texnologiyalardan istifadə edən tibbi yardım xidmətləri, anadangəlmə pozğunluqların erkən aşkarlanması üçün yeni doğulmuşların müayinələrinin aparılması və s.

*Ümumi təhsil* proqramı üzrə 2026-cı ildə ayrılması nəzərdə tutulan 139,7 milyard dram (362 milyon dollar) xərcin konkret tədbirlər və istiqamətlər üzrə bölgüsü bu cür aparılıb: ümumi təhsildə innovativ pedaqoji proqramların tətbiqi, məktəbli olimpiadalarının keçirilməsi, şagirdlərin dərsliklər və tədris ədəbiyyatı ilə təmin edilməsi, təhsil müəssisələrinin tədris və metodiki materiallarla təmin edilməsi, məktəblərdə STEM təhsili və robototexnikasının inkişafının həyata keçirilməsi, Beynəlxalq Tələbə Qiymətləndirməsi Proqramında (PISA) iştirak, yaşayış yerindən kənarda işləyən dövlət ümumi təhsil məktəblərinin müəllimləri üçün kompensasiya, ümumtəhsil məktəblərinin müəllimləri və məktəb yaşlı uşaqlar üçün nəqliyyat xərclərinin kompensasiyası, *İlin ən yaxşısı* tədbiri çərçivəsində ümumi təhsil müəssisələrinin müəllimlərinin mükafatlandırılması, kənd yerlərində 100-ə qədər şagirdi olan dövlət təhsil müəssisələrində dərs deyən müəllimlərə əlavə ödənişlərin müəyyən edilməsi və s.

Bu əlavəyə hər bir istiqamət, məsələn təhsil bölməsi üzrə investisiya xərclərinin həcmi və xərclənmə istiqamətləri barədə də məlumatlar daxil edilir. Məsələn, 2026-cı ildə ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrinin tikintisi, yenidən qurulması və təchizatı üçün 140,9 milyard dram (386 milyon dollar) nəzərdə tutulub. Həmin vəsaitin 50,8 milyard dramı (133 milyon dollar) orta məktəblər üçün yeni binaların tikintisinə, bütün universitetlərin eyni ərazidə fəaliyyət göstərməsini təmin edəcək *Akademik Şəhər* tələbə şəhərciyinin tikintisinə 4,9 milyard dram (13 milyon dollar) ayrılıb.

**3) Növbəti maliyyə ili üzrə dövlət büdcəsinin proqram xərclərinin nəticə göstəriciləri əsasında təqdimatı.** Bu əlavədə proqramlar, onların nəzərdə tutduğu fəaliyyət və tədbirlər, hər bir fəaliyyət üzrə baza göstəricisi və hesabat dövrünün sonuna hədəflənən göstərici əks etdirilir. Məsələn, Səhiyyə Nazirliyinin *İctimai səhiyyə* Proqramının nəticələrinin ölçülməsi üçün seçilmiş indikator belədir: 1 yaşa qədər uşaqların peyvəndləmə proqramı ilə əhatə dairəsi (baza göstərici 92%, 2028-ci ilə qədər hədəf göstərici 95%), 2 yaşa qədər uşaqların peyvəndləmə proqramı ilə əhatə dairəsi (baza göstərici 91%, 2028-ci ilə qədər hədəf göstərici 95%), ölkənin qan, qan komponentləri və qan məhsulları ilə təminat səviyyəsi (baza göstərici 100%, 2028-ci ilə qədər bu səviyyənin qorunması), əvvəlki illə müqayisədə siqaret çəkənlərin sayında azalma (baza göstərici 0%, 2028-ci ilədək 4% azalma), 18 yaşdan yuxarı siqaret çəkən kişilərin payı (baza göstərici 51,5%, 2028-ci ilədək 47,5%), 5

yaşa qədər uşaqlar arasında hər 1000 nəfərə ölüm səviyyəsi (baza göstərici 7 nəfər, hesabat dövrünün sonuna 4,7 nəfər). *Turizmin inkişafı* Proqramı üçün 2 nəticə indikatoru seçilib: beynəlxalq turizmdən əldə olunan gəlirlər (baza göstərici 370 milyard dram, hədəflənən göstərici 1 trilyon dram), ölkəyə gələn xarici turistlərin sayı (baza göstərici 870 min nəfər, hədəflənən göstərici 2,7 milyon nəfər);

**4) Funksional təsnifat üzrə xərclərin proqramlar və tədbirlər üzrə bölgüsü**. Bu hissədə dövlət büdcəsinin bütün funksional istiqamətlər üzrə xərclərin onların əhatə etdiyi hər proqram üzrə xərclərin məbləği detallı şəkildə təqdim edilir. Məsələn, *Müdafiə* bölməsi üzrə xarici hərbi yardım (o cümlədən xarici dövlətlərdəki hərbi attaşe və nümayəndəliklərin saxlanması), müdafiə sahəsində tədqiqat və layihələndirmə işləri, hərbi sənaye sahəsində peşəkar kadrların təhsili və yenidən hazırlanması, ölkənin müdafiəsinin təşkili kimi proqram və altproqramlara bölünür.

**5) Proqram xərclərinin iqtisadi təsnifatı.** Bu əlavədə hər bir proqram üzrə xərclərin hansı hissəsinin əmək haqqına və mal-xidmət alışlarına, hansı hissəsinin bina və qurğuların tikintisinə və alınmasına sərf edildiyi əks etdirilir.

**6) Dövlət büdcəsinin məcmu xərclərinin iqtisadi təsnifatı**. Bu əlavədə xərclər funksional istiqamətlərə və proqramlara ayrılmadan, məcmu xərclərin iqtisadi maddələr üzrə bölgüsü verilir. Məsələn, açıqlanan əlavəyə görə, 2026-cı ildə dövlət büdcəsinin 2925 milyard dram cəmi cari xərclərinin 275 milyard dramını əmək haqqı, 1286 milyard dramı sosial ödənişlər, 513 milyard dramını subsidiya və qrantlar, 423 milyard dramı faiz ödənişi, 418 milyard dramı mal və xidmət alışı ilə bağlı xərclər təşkil edəcək.

**7) Funksional təsnifatın bölmələri üzrə iqtisadi xərclərin bölgüsü**. Bu əlavə sayəsində hər kəs büdcənin funksional istiqamətləri üzrə, demək olar ki, istənilən dövlət qurumuna, hətta polis və təhlükəsizlik orqanlarına ayrılan xərclərin tərkibində əmək haqqına, mal və xidmətlərin, nəqliyyat vasitələrinin alınması üçün çəkilən xərcləri hər kəs görə bilir. Məsələn, 2026-cı ildə Prezident Aparatı üçün nəzərdə tutulan 1,6 milyard dram vəsaitin 861,5 milyon dramı əmək ödənişi, 52,3 milyon dramı kommunal xərclərə, 405 milyon dramı isə ezamiyyə xərclərinə yönəldiləcək. 2026-cı ildə Ali Məhkəmənin fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulan 16,8 milyard dram vəsaitin hər qurumun müxtəlif fəaliyyət istiqamətləri üzrə iqtisadi xərc maddələri ayrıca göstərilir. Nümunə üçün: *Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin edilməsi* fəaliyyəti üzrə 4,2 milyard dramın 3 milyard dramı əmək haqqı xərcləridir.

Daxili İşlər Nazirliyinin büdcəsinin də əmək haqqı xərcləri daxil əsas fəaliyyətlər və proqramlar üzrə iqtisadi strukturu ictimaiyyət üçün tam açıqdır. Məsələn, Nazirlik üçün 2026-cı ildə 102,6 milyard dram (268 milyon dollar) ümumi büdcə ayrılıb. Bundan 13,6 milyard dramı xilasetmə xidmətinə ayrılıb ki, ondan da 12,1 milyard dram əmək haqqı xərcləridir. Yaxud həmin vəsaitdən Yanğından Mühafizə Xidməti üçün ayrılan 394,2 milyon dram vəsaitin nəqliyyat vasitələrinin və avadanlıqlarının alınması üçün nəzərdə tutulub. Nazirliyin siyasətin hazırlanması üzrə heyəti üçün nəzərdə tutulan 20,1 milyard dram vəsaitin 12 milyard dramı heyətin maaşları ilə bağlıdır. Mühüm əhəmiyyətli obyektlərin qorunmasına məsul heyətin saxlanması ilə bağlı 23,5 milyard dram məbləğində büdcənin 19,3 milyard dramı maaş və mükafat xərcləridir. Ağır və xüsusilə ağır cinayətlərlə mübarizə

üçün ayrılmış 4,5 milyard dram büdcənin 4,3 milyard dramı işçilərin əmək haqqı xərcləridir. Bu şəkildə, bütün xərc istiqamətləri və fəaliyyətlər üzrə polis orqanlarının dövlət büdcəsindən ayrılan xərclərinin tərkibi barədə ictimaiyyət məlumatlandırılır.

# 4. Azərbaycan hökumətinin növbəti maliyyə ili və ortamüddətli dövr üzrə cəmiyyətə açıqladığı büdcə informasiyaları

*Büdcə sistemi haqqında* Qanunun 13-cü maddəsinə görə, növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq, Milli Məclisin müzakirəsinə və təsdiqinə təqdim edilir. Qanunun 14-cü maddəsində qeyd edilir ki, növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi aşağıdakı sənədlərlə birlikdə parlamentə daxil olduğu tarixdən 10 gün ərzində mətbuatda dərc edilməlidir:

- növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi və qanun layihəsinə dair izahat;
- Azərbaycan Respublikasının növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri;
- büdcə-vergi siyasətinin əsas istiqamətləri *və* Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydaya uyğun ortamüddətli dövr üçün hədəf göstəriciləri;
- dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramlar;
- büdcə gəlirləri təsnifatının, funksional, iqtisadi və inzibati təsnifatların paraqrafları səviyyəsində gəlirlərin və xərclərin layihəsi;
- dövlət borcları və dövlət zəmanəti ilə digər öhdəliklərə dair məlumat;
- növbəti il üzrə icmal büdcənin funksional və iqtisadi təsnifata uyğun olaraq paraqraflar səviyyəsində layihəsi;
- növbəti il üzrə dövlət büdcəsinin və icmal büdcənin, habelə sonrakı üç il üzrə icmal büdcənin layihələrinə uyğun olaraq investisiya layihələrinin sahələr və istiqamətlər üzrə ümumi məbləğlərini özündə əks etdirən dövlət investisiya proqramının layihəsi;
- Azərbaycan Respublikasının ərazisi üzrə toplu maliyyə balansı;
- Növbəti büdcə ili üzrə büdcədənkənar dövlət fondlarının büdcələri haqqında qanun layihələri və qanun layihələrinə dair izahat;

Milli Məclis tərəfindən ictimaiyyət üçün açıqlanan məlumatların analizi göstərir ki, bu günə qədər qanunverici orqan rəsmi internet saytında ancaq dövlət büdcəsi haqqında Qanun layihəsini dərc etməklə kifayətlənib. Məsələn, hazırda parlamentdə növbəti ilin büdcə müzakirələri getdiyi dövrdə Milli Məclis əvvəlki illərdə olduğu kimi, qanunvericilikdə nəzərdə tutulan sənədlərdən ancaq *Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında* Qanun layihəsini yerləşdirib.

Qanun layihəsi aşağıdakı məlumatları özündə ehtiva edir:

- **dövlət büdcəsinin vergi və qeyri-vergi mənbələrindən daxilolmalarının gəlir növləri üzrə məbləği.** Məsələn, layihədə açıqlanan məlumatlara görə, 2026-cı ildə 9 vergi növü (hüquqi

şəxslərin mənfəət, fiziki şəxslərin gəlir, hüquqi şəxslərin torpaq və əmlak, mədən, aksiz, yol, sadələşdirilmiş və əlavə dəyər vergiləri) hesabına dövlət büdcəsinin 38,6 milyard manat məbləğində ümumi gəlirinin 21,4 milyard manatlıq hissəsi formalaşacaq. Gömrük rüsumları hesabına 1,8 milyard manat, Dövlət Neft Fondundan isə 12,8 milyard manat daxil olacaq.

- **dövlət büdcəsinin xərc istiqamətlərinin bölmə və köməkçi bölmə səviyyəsində funksional təsnifatı** (məsələn, təhsil xərcləri bölməsinin məktəbəqədər, ümumi, peşə təhsili köməkçi bölmələri və s.). Məsələn, sənədə görə, 2026-cı ildə dövlət büdcəsinin ümumi xərcləri 41,7 milyard manat təşkil edəcək. Layihədə həmin məbləğin 12 funksional bölmə, 65 köməkçi bölmə və 17 paraqraf üzrə bölgüsü açıqlanıb. Nümunə üçün: 5,5 milyard manat ümumdövlət xidməti xərclərindən 220,7 milyon manatı *Büdcələrarası transfertlər* köməkçi bölməsinə, onun da 211,6 milyon manatı *Naxçıvan MR-na dotasiya*, yerdə qalan hissəsi *Yerli büdcələr* paraqraflarına ayrılır. Amma qanun layihəsində funksional təsnifatın hər bir bölməsi üzrə nə iqtisadi təsnifat, nə də proqramlar üzrə xərclərin bölgüsü verilmir. Eləcə də bələdiyyələrə ayrılan subsidiyaların yerli özünüidarə qurumları üzrə bölgüsü, subvensiyaların isə konkret layihələr və bələdiyyələr üzrə bölgüsü açıqlanmır;
- **Yerli gəlir və xərclərin ümumi, həmçinin hər bir rayon və şəhər üzrə məbləği**. Amma bu informasiyalar içərisində ayrılıqda hər bir rayon və şəhərin icra hakimiyyəti orqanının saxlanması, əsas sahələr (təhsil, səhiyyə, infrastruktur, ətraf mühitin qorunması) üzrə nəzərdə tutulan xərclər barədə hər hansı məlumat açıqlanmır;
- **Daxili və xarici dövlət borcuna xidmət xərcləri**. Layihəyə görə, 2026-cı il üzrə dövlət borcuna xidmət xərclərinin yuxarı həddi daxili borclar üzrə 2 milyard manat, xarici dövlət borcu üzrə 6 milyard manat, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 3 milyard manat məbləğində nəzərdə tutulub.
- **Dövlət büdcəsi kəsirinin yuxarı həddi**. Layihəyə əsasən, 2026-cı ildə dövlət büdcəsi kəsirinin maksimum məbləği 3,095 milyard manat məbləğində müəyyən edilib.

Milli Məclisin qanunvericilikdə nəzərdə tutulan məlumatları dərc etsə də, onlar ictimaiyyətə açıq deyil, ancaq xidməti istifadə üçün nəzərdə tutulur və deputatlara paylanır.

Parlamentdən fərqli olaraq, Maliyyə Nazirliyi büdcə parametrlərinə dair məlumatları Ortamüddətli Xərclər Çərçivəsi bölməsi altında rəsmi internet saytında yerləşdirir. Həmin bölmədə bir sıra sənədlər, o cümlədən 2026-2029-cu illər üzrə Ortamüddətli Büdcə Çərçivəsi (OMXÇ) yerləşdirilib. Bu sənədlərdəki məlumatlar əsasən bir-birini təkrarlayır, bəzi hallarda eyni istiqamətə aid göstəricilər bir-birindən fərqlənir. Məsələn, OMXÇ-nin tətbiq edildiyi 3 sektor üzrə ayrılacaq vəsaitlərin həcmi Çərçivə sənədi ilə digər sənəddə fərqlənir. Çərçivə sənədində 2026-cı il üçün *Ətraf mühitin mühafizəsi* sektoruna 415,8 milyon manat, *Təhsil* sektoruna 5,02 milyard manat, *Sosial müdafiə və sosial təminat* sektoruna 4,58 milyard manat həcmində vəsait ayrılması nəzərdə tutulduğu qeyd edildiyi halda, digər sənəddə bu göstərici uyğun olaraq, 424,8 milyon manat, 5,06 milyard manat və 1,18 milyard manat göstərilir.

2026-2029-cu illər üzrə *Ortamüddətli büdcə çərçivəsi* və *Ortamüddətli xərclər çərçivəsi* adlandırılan hər 2 sənəd ümumiləşdirilsə, ictimaiyyətin dövlət büdcəsi layihəsində olmayan və bu sənədlər vasitəsilə əldə edə biləcəyi büdcə informasiyalarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- **Dövlət borcunun ümumi məbləği.** 2026-cı ilin sonuna dövlət borcunun məcmu məbləğinin 30,526 milyard manata çatacağı və bunun 2025-ci ilin proqnoz göstəricidən 1,522 milyard manat çox olduğu göstərilib. İl ərzində xalis birbaşa dövlət borclanmasının 1,525 milyard manat, dövlət büdcəsinin borca xidmət xərclərinin 2,627 milyard manat, borclanma hesabına büdcənin kəsirinin maliyyələşdirilməsi xərclərinin 2,469 milyard manat təşkil edəcəyi qeyd edilib.
- **Dövlət büdcəsinin neft və qeyri-neft gəlirlərinin məbləği.** 2026-cı ildə 38,6 milyard manat səviyyəsində proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 21,6 milyard manatının və ya 56%-nin qeyri-neft gəlirləri hesabına formalaşacağı bildirilir.
- **Dövlət büdcəsinin vergi və qeyri-vergi gəlirlərinin məbləği.** 2026-cı ildə 38,6 milyard manat səviyyəsində proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 21,4 milyard manatının və ya 55,4%-nin vergi gəlirləri, 17,2 milyard manatını yaxud 44,6%-ni qeyri-vergi gəlirləri təşkil edəcək. Vergi gəlirlərinin 16,4 milyard manatını Dövlət Vergi Xidməti, 5 milyard manatını Dövlət Gömrük Komitəsi təmin edəcək. Qeyri-vergi gəlirlərinin əsas hissəsi – təxminən 12,9 milyard manatı Dövlət Neft Fondundan daxil olacaq.
- **Dövlət büdcəsi xərclərinin cari və əsaslı xərclər üzrə bölgüsü.** 2026-cı il üzrə proqnozlaşdırılan 41,7 milyard manat dövlət büdcəsi xərclərini 14,1 milyard manatının əsaslı, yerdə qalan hissəsinin cari xərclər olacağı qeyd olunur.
- **Dövlət büdcəsi xərclərinin iqtisadi təsnifat üzrə bölgüsü.** 2026-cı ildə dövlət büdcəsi xərclərinin 24,5%-nin və ya 10,2 milyard manatı əmək ödənişinə, 13,2%-nin və ya 5,5 milyard manatının mal və xidmət alışına, 33%-nin, yaxud 13,8 milyard manatının qeyri-maddi aktivlərə, 8,6%-i və ya 3,6 milyard manatının sosial ödənişlərə sərf olunacağı göstərilib.
- **OMXÇ-nin tətbiq edildiyi sektorlar üzrə məlumatlar.** OMXÇ-nin tətbiq edildiyi 3 sektor - təhsil, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi üzrə xərclərin 2026-2029-cu illər üzrə proqnozu verilib. Proqnoza görə, hər il orta hesabla *Təhsil* sektoruna 10 proqramın icrası üçün 5,1-5,3 milyard manat, *Kənd təsərrüfatı* sektoruna 8 proqramın icrası üçün 1,2 milyard manat, *Ətraf mühitin mühafizəsi* sektoruna 5 proqramın icrası üçün 425-454 milyon manat civarında vəsait ayrılacaq. Sənəddə bu proqramların hər birinin adı və ayrılması nəzərdə tutulan vəsaitin həcmi qeyd edilir. Lakin nə proqramların məqsədi, nə onların hər birinin çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbir və layihələr üzrə xərclərin ümumi məbləği, nə xərclərin iqtisadi və inzibati təsnifat üzrə bölgüsü, nə də proqramların nəticələrini əks etdirən göstəricilər barədə məlumat açıqlanmır. Məsələn, 2026-cı ildə kənd təsərrüfatı sektoru üzrə *Bitkiçiliyin inkişafı* proqramı üzrə 970,4 milyon manat, *Aqrar sahənin sığorta xidmətləri ilə təminatları* proqramı üzrə 16,7 milyon manat nəzərdə tutulub. Göründüyü kimi, məlumatlar tamamilə ümumi xarakter daşıyır və xərclərin tərkibini əks etdirən detallı informasiyalar açıqlanmır.
- ***2022-2026-cı illər üzrə Sosial İqtisadi İnkişaf Strategiyası* üzrə xərclərin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğu.** BMT-nin qəbul etdiyi 17 qlobal məqsəd (aclığa son, keyfiyyətli təhsil, layiqli əmək və iqtisadi artım, dayanıqlı şəhərlər və s.) üzrə Strategiya çərçivəsində ayrılan

xərclər barədə məlumat açıqlanır. Məsələn, *Aclığa son* məqsədi üçün 5,05 milyon manat, *Dayanıqlı şəhərlər və icmalar* məqsədi üzrə 3,5 milyard manata ayrıldığı qeyd olunur. Amma həmin məqsədlərə çatmaq üçün hansı layihə və tədbirlərin həyata keçiriləcəyi, xərclərin bu layihə və tədbirlər üzrə bölgüsü təqdim edilmir. Yalnız məqsədin adı və ona ayrılan büdcənin məbləği görünür. Eyni qaydada, *Sosial müdafiə* sektoru üzrə 3 proqram üzrə xərclərin məbləği açıqlanır, amma proqramlar çərçivəsində nəzərdə tutulan layihə və tədbirlər, onların hər biri üzrə xərclərin bölgüsü, proqramların aralıq və son nəticələrini izləmək üçün göstəricilər barədə hər hansı məlumat yoxdur. Sadəcə qeyd edilir ki, 2026-cı ildə *Yoxsulluğa son* məqsədi üzrə 4,374 milyard manat, *Layiqli əmək və iqtisadi artım* məqsədi üzrə 202 milyon manat, *Bərabərsizliyin azaldılması* məqsədi üzrə 2,9 milyon manat ayrılacaq.

- **Gəlirlər üzrə siyasətin əsas istiqamətləri.** 2026-2029-cu illər üzrə gəlir siyasətinin bir sıra əsas istiqamətləri müəyyənləşdirilib: *1) Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və vergi yükünün azaldılması* (neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərinin vergi yükünün optimallaşdırılması, nağdsız ödənişlərin stimullaşdırılması, kənd təsərrüfatı istehsalçılarına dəstəyin artırılması, vergi güzəştlərinin əhatə dairəsinin genişləndirilməsi, aksiz və əlavə dəyər vergisi siyasətində dəyişikliklərin aparılması); *2) Əlverişli investisiya mühitinin yaradılması* (balıqçılıq sahəsində dəstək mexanizmlərinin tətbiqi, dövlət-özəl tərəfdaşlığı çərçivəsində yerli istehsalın stimullaşdırılması, daxildə istehsal olunan avtomobillərin satışına və onların idxalına dair vergi güzəştlərinin təkmilləşdirilməsi tədbirləri;); *3) Vergi və gömrük sahəsində inzibatçılığın təkmilləşdirilməsi* (iqtisadi fəaliyyət sahələri üzrə təmir və amortizasiya xərclərinin uçotu mexanizminin təkmilləşdirilməsi, güzəşt mexanizmlərinin optimallaşdırılması, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən təsərrüfat subyektlərinin rezidentlik statusunun tənzimlənməsi və müvafiq güzəştlərdən yararlanmasının təmin olunması tədbirləri)
- **2026-2029-cu illər üzrə dövlət xərclərinin prioritet istiqamətləri.** Sənəddə dövlət xərclərinin 7 əsas prioritet istiqamətləri göstərilir: *1) Dayanıqlı və yüksək iqtisadi artımın dəstəklənməsi; 2) Müdafiə və milli təhlükəsizlik tədbirləri; 3) Sosial müdafiə və sosial təminat istiqamətində tədbirlərin icrası; 4) Təhsilin və innovativ inkişafın dəstəklənməsi; 5) Səhiyyə sisteminin müasirləşdirilməsi və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi; 6) İşğaldan azad olunmuş ərazilərdə yenidənqurma, bərpa və məskunlaşdırma tədbirlərinin davam etdirilməsi; 7) Təmiz ətraf mühit və "yaşıl artım"ın təmin olunması.* Məsələn, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün *Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı* çərçivəsində 2020-2025-ci illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət 22 milyard manat ayrılıb. 2026-ci ildə bu məqsədə 3,5 milyard manat vəsait ayrılması nəzərdə tutulub.
- **2026-cı il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin ortamüddətli gəlir proqnoz göstəriciləri.** 2026-2029-cu illər üzrə icmal və dövlət büdcəsinin gəlirlərinin həcmi, gəlirlərin strukturu, o cümlədən qeyri-neft-qaz gəlirlərinin həcmi təqdim edilir. Proqnoza görə, 2026-2029-cu illərdə dövlət büdcəsinin gəlirləri 39,3 milyard manatdan 41,6 milyard manata yüksələcək. Bu müddətdə qeyri-neft-qaz gəlirlərinin ümumi gəlirlərdə payı 55%-dən 61,9%-ə çatacaq.

- **Xam neftin dünya bazarlarında qiyməti ilə bağlı gözləntilər və onun büdcə gəlirlərinə təsiri.** Bu bölmədə Dünya Bankı, BVF və s. kimi beynəlxalq qurumların dünya bazarlarında neftin qiyməti, istehsal və istehlak səviyyəsi ilə bağlı proqnozları və bu proqnozları yaradan amillər barədə məlumatlar verilir. Xam neftin dünya bazarlarında orta satış qiyməti optimist, baza və pessimist olmaqla, 3 ssenari əsasında təqdim edilir. Proqnoza əsasən, 2026-2029-cu illərdə neftin bir barelinin qiyməti optimist ssenari üzrə 75 dollar, baza ssenari üzrə 65 dollar, pessimist ssenari üzrə 55 dollar olacaq. Bu ssenarilər əsasında dövlət büdcəsinin neft-qaz gəlirlərinin intervalı qarşıdakı 4 ildə 3.4-3,8 milyard manatdan 3,1-3,5 milyard manata qədər azalacaq.

Maliyyə Nazirliyinin saytında yerləşdirilən məlumatlarda həmçinin 2026-cı maliyyə ili və sonrakı 3 il üzrə bir sıra büdcə informasiyalarını əldə etməyə imkan yaradır. Ancaq bu məlumatların 2026-cı ilə aid göstəriciləri eyni zamanda *2026-cı ilin dövlət büdcəsi haqqında* Qanun layihəsində əksini tapıb. Bu məlumatlara dövlət büdcəsinin layihəsi üzrə xərclərin funksional və iqtisadi təsnifatı, vergi və qeyri-vergi gəlirlərinin həcmi ilə bağlı göstəricilər aiddir.

**Xərclərin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğu.** Həmçinin, dövlət büdcəsi xərclərinin Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) uyğunluğu təqdim edilib. Nazirliyin saytında yerləşdirilmiş Əlavədə *Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası*nda tədbirlərin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğu ilə bağlı vəsaitlərin həcmi göstərilib. DİM-in 17 məqsədinin 10-na uyğun gələn xərclərin həcmi verilib. 2026-cı ildə bu tədbirlərin maliyyələşdirilməsinə dövlət büdcəsindən 4,1 milyard manat xərclənəcək. Əlavəyə görə, bu vəsaitin əsas hissəsi (85%-i) – 3,5 milyard manatı 11-ci məqsədə - Dayanıqlı şəhərlər və icmalar məqsədinə yönəldiləcək. Bundan başqa, saytda 2026-2029-cu illər ərzində 4 sektor - *Sosial müdafiə və sosial təminat*, *Ətraf mühitin mühafizəsi*, *Kənd təsərrüfatı* və *Təhsil* sektorlarında icra olunacaq proqramlara ayrılacaq vəsaitlərin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluq cədvəli də verilib. Cədvələ görə, ayrılan vəsaitlər *Sosial müdafiə və sosial təminat* sektoru üzrə DİM-in 3, *Ətraf mühitinin mühafizəsi"* sektoru üzrə 7, *Kənd təsərrüfatı* sektoru üzrə 5 və *Təhsil* sektoru üzrə 1 məqsədinə uyğunluq təşkil edib.

*Büdcə sistemi haqqında* və *Hesablama Palatası haqqında* qanunlara əsasən, Hesablama Palatası dövlət büdcəsinin layihəsinə rəy verir. Hesablama Palatasının 2026-cı ilin dövlət büdcəsi haqqında Qanun layihəsinə verdiyi Rəy aşağıdakı bölmələrdən ibarətdir:

- Büdcə zərfinə daxil edilən aidiyyəti sənəd və göstəricilərin qanunvericiliyə və strateji sənədlərə uyğunluğunun təhlili;
- Dövlət büdcəsi gəlirlərinin təhlili
- Dövlət büdcəsi xərclərinin təhlili
- Dövlət büdcəsi kəsiri və kəsirin maliyyələşdirilməsinin təhlili
- Dövlət borcu və dövlət borcuna xidmət xərclərinin təhlili

Hesablama Palatası həmçinin 3 büdcədənkənar fondun (Dövlət Sosial Müdafiə Fondu, Dövlət Neft Fondu, İşsizlikdən sığorta Fondu) büdcə layihəsinə rəyini rəsmi internet saytında yerləşdirir. Palata artıq Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta Fondunun 2026-cı il üzrə büdcələrinə dair layihələrinə öz rəylərini də saytda yerləşdirib.

# 5. Analizin əsas nəticələri

Cənubi Qafqazın 3 ölkəsi üzrə büdcə müzakirələri başlayana qədərki dövrdə və müzakirələrin gedişində hökumət tərəfindən cəmiyyətə açıqlanan büdcə sənədlərinin və zəruri büdcə informasiyalarının əhatə dairəsi ilə bağlı aparılan analizin üzə çıxardığı ən mühüm nəticələr kimi aşağıdakı məqamları qeyd etmək mümkündür:

**1) Gürcüstan və Ermənistanda sadə vətəndaşların əldə edə bildiyi büdcə informasiyaları Azərbaycanda hətta Parlament üzvləri üçün əlçatan deyil. Halbuki Azərbaycan Konstitusiyasının 95-ci maddəsinə əsasən büdcənin təsdiqi və onun icrasına nəzarət bilavasitə Parlamentin müstəsna səlahiyyətinə daxildir. Şübhəsiz ki, bu səlahiyyətin icrası deputatların büdcə haqqında ən xırda detallara qədər məlumatlı olmasını tələb edir;**

**2) Gürcüstan və Ermənistanla müqayisədə Azərbaycanda ictimaiyyət üçün əlçatan olmayan büdcə informasiyalarının siyahısına aşağıdakı məlumatlar daxildir:**

- *Funksional bölmələr üzrə xərclərin iqtisadi təsnifatı;*
- *Funksional bölmələr üzrə xərclərin proqramlar üzrə bölgüsü;*
- *Proqramlar üzrə xərclərin konkret fəaliyyətlər, tədbirlər və layihələrə görə bölgüsü;*
- *Proqram xərclərinin iqtisadi təsnifatı;*
- *Proqramların məqsədi, onların nəticələrini qiymətləndirmək üçün aralıq və son nəticə göstəriciləri;*
- *Ayrı-ayrı regionlar üzrə yerli hakimiyyət strukturlarının saxlanması xərcləri;*
- *Hər bir təşkilat və paraqraflar üzrə xərclərin iqtisadi təsnifatı;*
- *Publik və qeyri-kommersiya hüquqi şəxslərinin qanunvericiliklə əldə edəcəyi gəlirlər və həmin gəlirlər çərçivəsində xərcləmələrin məbləği;*
- *Dövlət büdcəsi xərclərinin proqramlar və altproqramlar üzrə bölgüsü;*
- *Büdcə investisiya xərclərinin layihələr üzrə bölgüsü;*
- *Xarici kreditlər və beynəlxalq qrantlar hesabına keçirilən layihələr və onların həri biri üzrə xərclərin bölgüsü;*
- *Mərkəzi hökumət tərəfindən yerli büdcələrə verilən maliyyə yardımlarının yerli özünüidarə orqanları, eləcə də məqsədli yardımların konkret layihələr üzrə bölgüsü;*
- *Büdcədən maliyyə alan təşkilatlar üzrə ştat vahidlərinin sayı;*
- *Dövlət orqanlarının xidmətində olan nəqliyyat vasitələrinin sayı;*
- *Hüquq-mühafizə (daxili işlər orqanları, prokurorluq), təhlükəsizlik və müdafiə strukturları üzə büdcədən ayrılan maaş fondunun məbləği.*

Büdcə şəffaflığı sahəsində mövcud beynəlxalq təşəbbüslərin çərçivəsində də baxdıqda Azərbaycanda büdcə informasiyalarına ictimai əlçatanlıq xeyli məhduddur. Məsələn, Beynəlxalq Valyuta Fondunun Fiskal Şəffaflıq Məcəlləsi bütün dövlət sektorunu əhatə edən büdcə məlumatları

açıqlanmasını zəruri sayır. Bu, təkcə mərkəzi və yerli büdcələrlə bağlı deyil, eləcə də dövlət müəssisələri ilə bağlı maliyyə göstəricilərinin təqdim edilməsini zəruri sayır. Azərbaycan kimi dövlət vergilərinin büdcədə payının yüksək olduğu ölkədə özəl və dövlət sektoru üzrə daxilolmaların həcminin açıqlanması xüsusilə vacibdir. BVF ekspertləri xərclər üzrə təsnifatın yalnız funksional deyil, iqtisadi, inzibati və proqram səviyyəsində açıqlanmasını, əsas investisiya layihələrinin siyahısının və məbləğlərin cəmiyyət üçün təqdim edilməsini vacib sayır. Eləcə də Beynəlxalq Büdcə Layihəsi (IBP) təşkilatının metodologiyasına görə, *Hökumətin büdcə təklifləri* sənədində funksional xərc bölmələrinin iqtisadi və proqram təsnifatı səviyyəsində açıqlanmalı, investisiya layihələrinin adları, hər bir layihə üzrə məbləğ və icraçı qurum barədə məlumatlar əsasında təqdim edilməli olduğu vurğulanır.